RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 33 (8349) CÜMƏ, 14 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## İnkişaf, quruculuq və yüksək rifah siyasəti

### İlham ƏLİYEV: "Bu gün bu qədər müstəqil, bu qədər azad dövlət Azərbaycan tarixində olmamışdır"

Həyata keçirilən çevik islahatlar qısa tarixi dövr ərzində Azərbaycanda iqtisadiyyatın dinamik inkişafına təkan verib və makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin edib. Bu gün iqtisadi sahədə qarşıda duran əsas vəzifələr xüsusən qeyri-neft sektorunun daha da artımına nail olmaq, ixrac və rəqabət imkanlarının genişləndirilməsini və şaxələndirilməsini sürətləndirməkdir.

#### İqtisadiyyata yeni nəfəs verən dövlət proqramları

16 il əvvəl başlanan regionların inkişafı proqramları Azərbaycanın sosial-iqtisadi həyatına yeni nəfəs gətirməklə bu istiqamətdə dövlət siyasətinin yeni müstəviyə qədəm qoymasını təmin edib. Xüsusilə qeyd edilməlidir ki, bu dövlət proqramlarının icrasının və yaradılmış potensialın nəticəsidir ki, dünyada iqtisadi geriləmənin yaşandığı və hər bir dövlət üçün sınaq dövrü olan illərdə Azərbaycan böhrandan layiqincə çıxıb və həyata keçirilən yeni iqtisadi islahatlarla öz inkişafının yeni mərhələsinə qədəm qoyub.

Bu günlərdə Prezident İlham Əliyevin Kürdəmir rayonuna səfəri bir daha göstərdi ki, regional inkişaf dövlət proqramları çərçivəsində qarşıya qoyulan vəzifələr ölkədə qeyri-neft sektorunun kompleks inkişafına və sosial rifaha xidmət edir. Bir daha təsdiq olundu ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, infrastruktur və kommunal xidmətlərin səviyyəsinin daha da yüksəldilməsində və əhalinin rifah halının yaxşılaşdırılmasında müstəsna rol oynamaqdadır.

İqtisadi inkişafı şərtləndirən vacib məsələlərdən biri bütün sahələr üzrə müasir infrastrukturun olmasıdır. Reallıq da göstərir ki, dayanıqlı inkişaf ilk növbədə infrastrukturun yeniləşməsindən keçir. Dövlət başçısı İlham Əliyev davamlı yüksəlişin, tərəqqinin yolunu digər amillərlə yanaşı, infrastrukturun daim yenilənməsində və müasirləşməsində, bu sahədə beynəlxalq standartların tətbiqində, qabaqcıl biliklərin, texnologiyaların mənimsənilməsində görür və əməli tədbirlərin həyata keçirilməsini daim önə çəkir.

#### İnkişafa xidmət edən yeni infrastruktur

Prezident İlham Əliyevin Kürdəmir səfərində diqqəti çəkən əsas məqamlardan biri məhz mövcud infrastrukturun yenilənməsi və təzəsinin yaradılması ilə bağlı layihələrin uğurla başa çatdırılmasıdır. Bu səfər zamanı Pirili-Muradxan-Sor-Sor avtomobil yolunun yenidənqurmadan sonra istifadəyə verilməsi, eyni zamanda rayonda icra olunan digər layihələr bütövlükdə ölkədə yol-nəqliyyat infrastrukturunun sürətlə yenidən qurulmasının göstəricisidir. Cənab İlham Əliyevin Kürdəmirlə bağlı "Dördüncü proqram başa çatanda bir dənə də təmirsiz yol qalmamalıdır" deməsi isə dövlət başçısının bu sahəni xüsusi diqqət mərkəzində saxlamasından xəbər verdi. Xatırladaq ki, məhz bu diqqətin nəticəsidir ki, son 16 ildə Azərbaycanda 17 min kilometrə yaxın avtomobil yolu tikilib. Təkcə 2019-cu ildə ölkə üzrə 1300 kilometr avtomobil yolu salınıb ki, bu da planın artıqlaması ilə yerinə yetirilməsi deməkdir. Hazırda avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 27-ci yerdədir və bir çox inkişaf etmiş ölkələri qabaqlayır.

Ötən il ölkədə 84 məktəb, 60 tibb müəssisəsi tikilib və təmir edilib, 800 meqavat elektrik enerjisi əldə olunub, 80 min hektar torpağa su verilməsi təmin edilib, 300-dən çox subartezian quyusu qazılıb. Bütün bunların hamısı regional inkişafa dair dövlət proqramı çərçivəsində qarşıya qoyulan vəzifələrdən biri olan infrastrukturun sürətlə yenilənməsindən xəbər verir.

**Ardı 2-ci səh.**

## Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi müzakirə edildi, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyətinə toxunuldu, bu yaxınlarda Bakıda keçiriləcək "Cənub qaz dəhlizi" Məşvərət Şurasının növbəti toplantısında Avropa İttifaqının yüksək səviyyədə iştirak etmək niyyətində olmasının önəmi vurğulandı və əlaqələrimizin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1."Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. həmin Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2020-ci il*

*Sərəncama edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Azərbaycan-AYİB Əməkdaşlıq Hesabı ilə əlaqədar Əməkdaşlıq Sazişinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Azərbaycan-AYİB Əməkdaşlıq Hesabı ilə əlaqədar 2019-cu il noyabrın 22-də London şəhərində imzalanmış Əməkdaşlıq Sazişi təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Sazişi qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Sazişinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Avropa Yenidənqurma və İnkişaf Bankına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli və "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2018-ci il 7 fevral tarixli 1819 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1820; 2017, № 5, maddə 821, № 11, maddə 2006; 2018, № 2, maddə 181, № 5, maddə 920, № 6, maddə 1196, № 9, maddə 1825; 2019, № 1, maddə 59, № 2, maddə 218, № 5, maddə 837) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.2-ci bənddən "mənzillərin əvəzləşdirilməsi halları istisna olmaqla," sözləri çıxarılsın;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 2.3-cü və 2.4-cü bəndləri ləğv edilsin.

2. "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 fevral tarixli 1819 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 183, № 6, maddə 1196) 5.3-cü bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2020-ci il*

## Prezident İlham Əliyev yunan-Roma güləşi üzrə komandamızı Avropa çempionatındakı tarixi uğuru münasibətilə təbrik edib

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yunan-Roma güləşi üzrə milli komandamızın Avropa çempionatında möhtəşəm uğur qazanması münasibətilə özünün "Twitter" səhifəsində paylaşım edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısının paylaşımında deyilir: "Avropa çempionatında yunan-Roma güləşi üzrə tarixdə ilk dəfə 6 medal qazanan milli komandamızın möhtəşəm qələbəsi münasibətilə idmançılarımızı, məşqçilərimizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm".

Xatırladaq ki, İtaliyanın paytaxtı Romada keçirilən Avropa çempionatında yunan-Roma güləşi üzrə milli komandamız tarixində ilk dəfə rekord sayda - 6 medal qazanıb. Sənan Süleymanov (77 kq) və Rafiq Hüseynov (82 kq) bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olublar. Eldəniz Əzizli (55 kq), Murad Bazarov (60 kq), Ülvi Qənizadə (72 kq) və İslam Abbasov (87 kq) isə üçüncü yeri tutublar.

Beləliklə, 2 qızıl və 4 bürünc medal qazanan millimiz 116 xal toplayaraq komanda hesabında ikinci olub.

## Birinci vitse-prezident Mehriban Əliyeva yunan-Roma güləşi üzrə milli komandamızın üzvlərini təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliyanın paytaxtı Romada keçirilən Avropa çempionatında 2 qızıl və 4 bürünc medal qazanan yunan-Roma güləşi üzrə milli komandamızın üzvlərini rəsmi "Instagram" səhifəsində təbrik edib.



AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin bununla bağlı paylaşımında deyilir: "İdman sahəsində növbəti böyük uğurumuz! İtaliyanın paytaxtı Romada keçirilən Avropa çempionatında yunan-Roma güləşi üzrə Azərbaycan millisi tarixində ilk dəfə 6 medal qazanaraq komanda hesabında ikinci yerdə qərarlaşıb. Bu möhtəşəm qələbə sevincini Azərbaycan xalqına yaşadan idmançılarımızı - qızıl medal sahibləri Sənan Süleymanovu və Rafiq Hüseynovu, bürünc medal sahibləri Eldəniz Əzizlini, Murad Bazarovu, Ülvi Qənizadəni və İslam Abbasovu və onların məşqçilərini səmimi-qəlbdən təbrik edir, onlara yeni-yeni nailiyyət və qələbələr arzulayıram".

## Daha güclü Azərbaycan naminə

### Prezident İlham Əliyev parlament seçkilərinin bütün demokratik meyarlara cavab verdiyini bəyan etdi

"Parlament seçkiləri bir daha onu göstərdi ki, bizim niyyətimiz demokratik inkişafın təmin edilməsidir. Çünki hətta bizə həmişə ən tənqidi mövqedən yanaşan təşkilatlar da seçkilərlə bağlı məruzəsində müsbət meyilləri qəbul etməyə məcbur olmuşlar. Pozuntulara gəldikdə, qeyd etmişlər ki, bu prosedur xarakterli pozuntular idi. Yəni bu hər bir ölkədə var. Heç bir ölkədə tam kamil seçkilər keçirilmir. Amma bu seçkilərdə nə saxtakarlıq, nə ciddi pozuntular olub, nə də ki, seçkilərin legitimliyini, yaxud da nəticələrini şübhə altına alan hər hansı bir pozuntu".

Fevralın 12-də Kürdəmirdə "ASAN xidmət" mərkəzinin açılışında çıxış edən Prezident İlham Əliyev ölkədə keçirilən VI çağırış Milli Məclisə seçkiləri dəyərləndirərkən bu fikirləri səsləndirdi. Bu gün Azərbaycanın hər bir sahəsində islahatların aparıldığını vurğulayan dövlət başçısı dedi ki, Nazirlər Kabineti, Prezident Administrasiyasından sonra ölkə parlamenti də yenidən formalaşır.

Ümumiyyətlə, hər bir ölkədə seçkilər hakimiyyətin xalq etimadının və müdafiəsinin əldə etməsinin ən təsirli və sınanmış vasitəsidir. Çünki bu mühüm vasitə cəmiyyəti sosial-hüquqi ədalətsizliklərdən qoruyur. Hüquqi dövlət quruculuğu yolunu seçmiş Azərbaycanda VI çağırış Milli Məclisə seçkilər də ölkədə həyata keçirilən uğurlu islahatların növbəti təntənəsi kimi yadda qaldı.

Parlament seçkilərini Azərbaycanın dəvəti ilə ölkəyə gəlmiş 883 beynəlxalq müşahidəçi, 132 xarici KİV-dən 199 nümayəndə izlədi və sonda açıqladıqları rəylər seçkilərin demokratik və şəffaf şəraitdə keçdiyini təsdiqləmiş oldu. Beynəlxalq təşkilatların müşahidə missiyaları, ATƏT PA, həmçinin ATƏT DTİHB tərəfindən yüksək və məqbul şəkildə dəyərləndirildi.

**Ardı 2-ci səh.**

## Azərbaycan Respublikası Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Azərbaycan Respublikasının Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Regional Tərəfdaşlıq Fondunda iştirakı ilə əlaqədar ianə haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Azərbaycan Respublikasının Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Regional Tərəfdaşlıq Fondunda iştirakı ilə əlaqədar ianə haqqında 2019-cu il noyabrın 22-də London şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Avropa Yenidənqurma və İnkişaf Bankına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2020-ci il*

## "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 749 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1509-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 aprel tarixli 608 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 749 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 499; 2002, № 1, maddə 14; 2003, № 10, maddə 571; 2006, № 9, maddə 743; 2009, № 4, maddə 226, № 12, maddə 984; 2012, № 7, maddə 680; 2014, № 6, maddə 651; 2019, № 3, maddə 440) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bənddə "35.2-ci maddəsində (birinci halda)" sözləri "35.2-ci maddəsində (birinci və ikinci hallarda)" sözləri ilə əvəz edilsin.

2. 2.2-ci bənddə "(ikinci halda)" sözləri "(üçüncü halda)" sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. həmin Qanunun 35.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2020-ci il*

## İqtisadiyyat Nazirliyi və "Azərbaycan Dəmir Yolları" QSC birgə işçi qrup yaradır

"Azərbaycan Dəmir Yolları" QSC-də dəmir yolları sahəsində görülən işlər və nəzərdə tutulan tədbirlər müzakirə olunub. QSC-dən AZƏRTAC-a bildirilib ki, "Azərbaycan Dəmir Yolları"nın sədri Cavid Qurbanov dəmir yolu nəqliyyatı sahəsində həyata keçirilən və perspektiv layihələr barədə məlumat verib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov Prezident İlham Əliyevin nəqliyyat infrastrukturunun inkişafına xüsusi önəm verdiyini vurğulayıb, dəmir yolu nəqliyyatı sahəsində sistemli tədbirlərin davam etdirildiyini, dayanıqlı və rentabelli fəaliyyətin, mütərəqqi idarəetmə prinsiplərinin tətbiqinin əhəmiyyətini, birgə iş çərçivəsində bu sahənin sürətli inkişafına nail olunacağını qeyd edib.

Sonra "Azərbaycan Dəmir Yolları" QSC sədrinin müavinləri Vüsal Aslanov və Hicran Valehov təqdimatla çıxış ediblər.

Tədbirdə İqtisadiyyat Nazirliyi və "Azərbaycan Dəmir Yolları" QSC-nin əməkdaşlarından ibarət birgə işçi qrupun yaradılması qərara alınıb. İşçi qrup dəmir yolu infrastrukturuna kapital qoyuluşlarının səmərəliliyinin artırılması, əməliyyat xərclərinin optimallaşdırılması, korporativ idarəetmə standartlarının tətbiqi və sair ilə bağlı təkliflər hazırlayacaq.

# Daha güclü Azərbaycan naminə

## Prezident İlham Əliyev parlament seçkilərinin bütün demokratik meyarlara cavab verdiyini bəyan etdi

*Əvvəli 1-ci səh.*

Seçki prosesinin bütün demokratik meyarlara cavab verdiyini söyləyən dövlət başçısı vurğuladı ki, səsvermə günü seçkilər çox müsbət şəkildə keçirilib və əgər pozuntular olubsa, MSK tərəfindən araşdırılacaq: "Mərkəzi Seçki Komissiyası artıq fəal işə başlayıb, yerlərdən məlumat toplayırıq. Biz istəmirik ki, pozuntular olsun. Pozuntulara yol verən şəxslər öz cəzasını almalıdırlar ki, gələcəkdə belə hallara yol verilməsin".

Həqiqətən də, müşahidəçilərin mütləq əksəriyyəti seçkiləri çox müsbət qiymətləndirdi. Bəziləri qeyd etdi ki, bu bir çox ölkələr üçün nümunə ola bilər. Çünki bu seçkilər zamanı 1300-dən çox namizədin prosesə qatılması və seçkinin rəqabətli şəkildə obyektiv keçirilməsi çoxlarının diqqətini çəkib.

Seçki günündən əvvəl ölkəyə gələn bəzi beynəlxalq müşahidəçilərin hesabatlarında isə qeyd edilirdi ki, hər bir namizəd öz dairəsində açıq görüşlər keçirib, istədiyi sözləri deyirdi, bəziləri hakimiyyəti tənqid edirdilər. Heç kim buna görə heç kimə maneçilik törətmirdi.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın fikirlərinə diqqət edək: "Türkiyə olaraq bu seçkilərin şəffaf, sakit ab-havada keçməsinə, belə bir mühitin yaradılmasına görə, ilk növbədə, Prezident İlham Əliyevə çox təşəkkür edirik. İkincisi, Azərbaycan xalqının mütəşəkkilliyini, öz dəyərlərinə sahib çıxmasını təqdir edirik. Üçüncüsü, bir təşəkkürümüz də namizədlərədir. Bu seçkilərdə gənc namizədlər də fəal idi. Onlar seçkilərə hazırlıq dövründə Türkiyədə olduğu kimi, qapı-qapı gəzərək təbliğat işləri aparıblar. Mən inanıram ki, bundan sonrakı seçkilərdə Azərbaycan bunun faydasını görəcək. Sizə yoldaşlarım adından bir daha təşəkkür edirəm". Bütün bunlar da bir daha ölkədə ədalətli seçki mühitinin yaradıldığını, seçkilərin obyektiv keçirildiyini bir daha təsdiq edir.

Lakin bir sıra qüvvələr var ki, hətta verilən bəyanatlara rəğmən müəyyən anti-azərbaycançı dairələrin verdikləri tapşırıqları icra etməyə cəhd göstərdilər. Hər dəfə olduğu kimi, "sapı özümüzdən olan baltalar" bu dəfə də seçki prosesinə kölgə salmağa çalışdılar. Öncə seçkiləri "boykot" etməyə çağırış etdilər. Sonra isə xalqın mütəşəkkilliyini görüb, seçkilərə başqa rakursdan ləkə yaxmağa cəh etdilər. İctimai dəstəyinin bütünlüklə itirilməsi səbəbindən seçkilərə qatıla bilməyən dağıdıcı radikallar köhnə ənənələrinə sadiq qalaraq seçkiləri "boykot" etmək çağırışları etsələr də, biabırçı iflasa uğradılar və yenə də bütün "səyləri" boşa çıxdı. Parlament seçkiləri bir daha Azərbaycan mühitində və siyasətində radikalizmə yer olmadığını göstərdi.

Fevralın 10-da MDB İcraiyyə Komitəsi müşahidə missiyasının rəhbəri, Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə cənab İlham Əliyev məhz bu məsələyə toxunaraq demişdi ki, ölkəmizə qarşı hər zaman belə qərəzli mövqe nümayiş etdirilib. "Azərbaycanda keçirilən seçki kampaniyalarının təcrübəsinə əsasən deyə bilərəm ki, biz həmişə qərəzli münasibət görmüşük. Bununla belə, hesab edirik ki, bizim gizlədəcəyimiz heç nə yoxdur. Biz çoxlu sayda müşahidəçi dəvət etdik, gələnlərin hamısına minnətdarıq. Ona görə də son nəticədə nə yazılacağından və onları hansısa fikirləri səsləndirməyə məcbur edəcəklərindən asılı olmayaraq, hər halda onların hər birində həm ölkəmiz, həm insanlarımız, həm də seçki prosesi haqqında rəy formalaşacaq".

Ümumiyyətlə, parlament seçkilərinin keçirilməsini dəyərləndirərkən cənab İlham Əliyev qeyd edib ki, bu 2018-ci ildə prezident seçkilərindən sonra elan edilən islahatların davamıdır və onlar ardıcıl olaraq həyata keçirilir. Hər şey Azərbaycanın dayanıqlı inkişafının təmin olunmasına və demokratik proseslərin genişlənməsinə yönəlmiş ümumi inkişaf strategiyası çərçivəsində gedir: "Buna görə də həyata keçirilən struktur islahatları, o cümlədən kadr islahatları da bir məqsədə xidmət edir: biz yerimizdə saymayaq. Çünki müvəffəqiyyətlərdən arxayınlaşmaq olmaz".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycanın Müdafiə naziri NATO-nun toplantısında iştirak edib



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov fevralın 13-də Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasına töhfə verən dövlətlərin Müdafiə nazirləri səviyyəsində təşkil edilən toplantısında iştirak edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Əfqanıstandakı təhlükəsizlik və siyasi vəziyyət, əldə edilən son nailiyyətlər, missiyanın gələcəyi və digər məsələlər müzakirə olunub.

## *Hikmət HACIYEV:* "Harlem Dezirin hadisələrə tələm-tələsik reaksiyası onun Azərbaycana olan aşkar qərəzini göstərir"

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ATƏT-in media azadlığı üzrə nümayəndəsi Harlem Dezirin Azərbaycanda guya jurnalistlərə qarşı zorakılığın baş verməsi ilə bağlı bəyanatına münasibət bildirib.



Hikmət Hacıyev AZƏRTAC-a müsahibəsində Harlem Dezirin davamlı şəkildə qatı anti-Azərbaycan mövqeyi nümayiş etdirən bir şəxs olduğunu, Azərbaycanda baş verən hadisələri qəsdən şişirtdiyini və siyasiləşdirdiyini deyib. Prezidentin köməkçisi vurğulayıb ki, H.Dezirin məsələləri öyrənmədən, tələm-tələsik reaksiyası onun Azərbaycana olan aşkar qərəzini göstərir.

"Lakin "insan haqları uğrunda cəfakeş" H.Dezir nədənsə Ermənistanda insan hüquqlarının pozulması, təqib və həbslərə göz yumur. Ermənistanın baş naziri öz siyasi rəqiblərini bir-bir həbsə atır, onları "asfalta uzatmaqla" hədələyir. Ermənistanda jurnalistlər həbs və təqib olunur. Keçən il müxalif siyasətçi və jurnalist Mher Yeqizaryan həbsxanada etdiyi aclığın ardından vəfat etdi. Lap bu yaxınlarda "VETO" hərəkatından olan müxalif bloger Narek Malyan qanunsuz silah saxlanması ittihamı ilə saxlanılıb. Satik Seyranyan, Armen Tavadyan və digər şəxslərlə bağlı vəziyyəti qeyd etmək olar. Lakin biz H.Dezirin bu məsələlərə dair heç bir reaksiyasının şahidi olmuruq. Görünür H.Dezir insan hüquqlarına münasibətini siyasi coğrafiyaya görə müəyyən edir. Prosedurlara uyğun olaraq bu ilin iyun ayında ATƏT-də onun mandatının uzadılıb-uzadılmaması məsələsinə baxılacaq. H.Dezirin vəzifəsindən sui-istifadə etməsi, məsələləri lüzumsuz yerə hədsiz dərəcədə şişirtməsi və siyasiləşdirməsi nəzərə alınaraq, bu gedişlə onun mandatının uzadılması ilə bağlı Azərbaycan tərəfinin fərqli fikri olacaq", - deyə Hikmət Hacıyev qeyd edib.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Sizin sədri olduğunuz hakim Yeni Azərbaycan Partiyasının növbədənkənar parlament seçkilərində layiqli qələbə qazanaraq respublikanın qanunvericilik orqanında yerlərin çoxunu əldə etməsi münasibətilə Moldova Respublikasının parlamenti adından və şəxsən öz adımdan səmimi təbrikləri qəbul edin.

Ölkələrimiz arasındakı dostluq münasibətlərini məmnunluq hissi ilə vurğulamaq istəyirəm. Ümidvaram ki, Azərbaycan Respublikasının yeni parlamenti Moldova Respublikasının parlamenti ilə birgə və səmərəli fəaliyyəti davam etdirəcək.

Əminəm ki, ikitərəfli əlaqələrin bütün kompleksinin daha da inkişaf etdirilməsi, habelə müxtəlif sahələrdə konstruktiv dialoqun və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi xalqlarımızın əsas mənafelərinə cavab verəcək.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına isə davamlı sülh və tərəqqi arzulayıram. Sizə yüksək ehtiram bəslədiyimə əmin olmağınızı xahiş edirəm.

*Hörmətlə,*

***Zinaida QREÇANI,***
***Moldova Respublikası Parlamentinin Sədri***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

Sizin başçılıq etdiyiniz Yeni Azərbaycan Partiyasının parlament seçkilərində inamlı qələbəsi münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Səsvermənin nəticələri Sizin yüksək nüfuzunuzun, Azərbaycan Respublikasının Prezidenti vəzifəsində işlədiyiniz illər ərzində apardığınız islahatlara və qazandığınız sanballı nailiyyətlərə ölkə vətəndaşlarının şəksiz inamı və etimadının təzahürüdür.

Əminəm ki, biz seçkilərin nəticələrinə əsaslanaraq qarşılıqlı faydalı Rusiya-Azərbaycan əlaqələrini bütün sahələrdə, o cümlədən parlamentlərarası səviyyədə bundan sonra da ənənəvi dostluq və qarşılıqlı anlaşma ruhunda inkişaf etdirəcəyik.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq və uğurlar, Azərbaycan vətəndaşlarına isə sülh və əmin-amanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin müavini***

## Ukrayna KİV-i Azərbaycanda keçirilən parlament seçkilərini geniş işıqlandırıb




Ukraynanın aparıcı kütləvi informasiya vasitələrində Azərbaycanda keçirilən parlament seçkiləri ilə bağlı silsilə informasiyalar, məqalələr dərc edilib, telekanallarda xüsusi reportajlar yayımlanıb.

AZƏRTAC xəbər verir ki, UKRİNFORM, UNİAN, "İnterfaks-Ukrayna" İnformasiya agentliklərində, Strana.ua, RBK-Ukrayna saytlarında, "Qolos-Ukrayna" qəzetində, "Butik-Media" nəşrində yayılan məlumatlarda Milli Məclisə seçkilərlə bağlı statistik rəqəmlər yer alıb. Məlumatlarda həmçinin Azərbaycanda növbədənkənar parlament seçkilərinin keçirilməsini zəruri edən amillərə, həyata keçirilən islahatlara da toxunulur. Seçkilərin nəticələri olaraq hakim Yeni Azərbaycan Partiyasının qalib gəldiyi vurğulanır.

Bundan başqa, Azərbaycanda keçirilən parlament seçkiləri Ukraynanın məşhur 1+1, "Ukrayna" kanalları tərəfindən geniş işıqlandırılıb. Bir neçə dəfə yayımlanan xüsusi reportajlarda tamaşaçılara seçicilərin, namizədlərin, yerli və beynəlxalq müşahidəçilərin sayı barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, Azərbaycanda keçirilən parlament seçkilərinə beynəlxalq təşkilatlar, həmçinin müxtəlif ölkələrin kütləvi informasiya vasitələri böyük maraq göstəriblər.

Ukrayna telekanalları həmçinin Cocuq Mərcanlı kəndindən də xüsusi reportajlar yayımlayıb. Reportajlarda xüsusi çəkiliş qrupu Cocuq Mərcanlı kəndində məskunlaşan azərbaycanlı ailələrə yaradılan şəraiti qeyd edib. Bildirilib ki, Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatlarından sonra Lələtəpə yüksəkliyi işğalçı Ermənistan hərbçilərindən geri alındıqdan sonra qısa zamanda Cocuq Mərcanlı kəndində müasir tipli qəsəbə salınıb. Qəsəbədə məktəb, məscid, poliklinika inşa olunub. Həmçinin reportajlarda Cocuq Mərcanlı kəndində parlament seçkiləri ilə bağlı yaradılan şərait, səsvermə prosesi də yer alıb.

# İnkişaf, quruculuq və yüksək rifah siyasəti

*Əvvəli 1-ci səh.*

Kürdəmirdə "Qlobal Aqro" Məhdud Məsuliyyətli Cəmiyyətinin aqroparkının yaradılması da aqrar sferada yeni infrastruktur olmaqla inkişafa xidmət edən mühüm layihədir. Qeyd edək ki, respublikada 51 aqropark və iri fermer təsərrüfatının yaradılması üzrə işlər sürətlə davam etdirilir. 153 min hektar ərazidə ümumi dəyəri 1,1 milyard manat dövlət dəstəyi göstərilmiş 33 aqropark və iri fermer təsərrüfatı birinci mərhələ üzrə fəaliyyətə başlayıb. 109 min hektar ərazidə ümumi dəyəri 1,3 milyard manat olan dövlət dəstəyi göstərilmiş 18 aqropark və iri fermer təsərrüfatında isə layihələndirmə və ya tikinti-quraşdırma işləri aparılır.

### Tarixin ən qüdrətli Azərbaycanını yaradan nailiyyətlər

Ümumiyyətlə, son 16 ildə Azərbaycanın hər bir sahə üzrə inkişaf göstəriciləri qürurvericidir. Belə ki, bu dövrdə iqtisadiyyatımız 3,4 dəfə artıb. Bu isə dünyada rekord göstərici hesab olunur. İqtisadiyyatın əsas sahələrindən olan sənaye istehsalında artım 2,7, kənd təsərrüfatında 2 dəfə olub.

Bu illərdə inşa olunan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, 33 yeni elektrik stansiyası, Taxtakörpü və Şəmkirçay su anbarları, Oğuz-Qəbələ-Bakı su kəməri məhz inkişafa və sosial rifaha xidmət edən yeni infrastrukturlardır.

Orbitə 3 peykin çıxarılması, altısı beynəlxalq olmaqla, yeddi aeroportun tikilməsi, Xəzərdə ən böyük liman olan Ələt Beynəlxalq Dəniz Limanının salınması müasirləşən və modernləşən Azərbaycanın nümunələridir.

Bu illərdə yoxsulluğun 50 faizdən 4,8 faizə düşməsi, əməkhaqqının 11 dəfə, pensiyaların 8 dəfə artması məhz iqtisadi inkişafdan irəli gələn sosial reallıqlardır. Ən əsası bütün bunlar tarixin ən qüdrətli Azərbaycanını yaradan möhtəşəm nailiyyətlərdir. Kürdəmirdə "ASAN xidmət" mərkəzinin açılışı zamanı könüllülərlə görüşdə Prezident İlham Əliyev bu barədə deyib: *"İndiki müstəqil Azərbaycanı heç bir dövrlə müqayisə etmək olmaz, heç bir dövrlə. Bu gün bu qədər müstəqil, bu qədər azad dövlət Azərbaycan tarixində olmamışdır".*

Azərbaycanda qarşıda duran əsas məqsəd və vəzifələrdən biri son illərdə qazanılan sosial-iqtisadi uğurların miqyasını daha da genişləndirməkdir. Prezidentin Kürdəmir səfəri göstərdi ki, bu vəzifə hər bir istiqamətdə sürətlə yerinə yetirilir. Təbii ki, əsas işlər qarşıdadır. Əlverişli iqtisadi mühit, həyata keçirilən sosial-iqtisadi siyasət yaxın illərdə Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri cərgəsinə qoşulmasını təmin edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Tovuzda vətəndaşlarla görüşüb

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2020-ci ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə fevralın 13-də Tovuz şəhərində Tovuz və Şəmkir rayonlarının sakinlərini fərdi qaydada qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə Tovuz Suvarma Sistemləri İdarəsinin inzibati binasında Tovuz və Şəmkir rayonlarından olan vətəndaşlarla görüşüb, onların müraciətlərini dinləyib.

Müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi, nov kanallarının qurulması, nasos stansiyaların tikintisi, yeni subartezian quyularının qazılması, suvarma kanallarının beton üzlüyə alınması, həmçinin cəmiyyətin səlahiyyətlərinə aid olmayan müxtəlif məsələləri əhatə edib.

Qəbulda hər bir vətəndaşın müraciətini dinləyən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə qəbulda iştirak edən məsul işçilərə müvafiq tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Qeyd edək ki, eyni gündə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavinləri Rafiq Aslanov Ağstafa rayonunda, Zakir Quliyev isə Qazax rayonunda vətəndaşları fərdi qaydada qəbul edib, onların müraciət və şikayətlərinə baxılıb.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Fevralın 13-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2020-ci il 31 yanvar və 1 fevral tarixli iclaslarının protokolları təsdiq olunub.

Sonra ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu Seçki Müşahidə Missiyasının 9 fevral Milli Məclisə seçkilərdə qurumun tərkibində təmsil olunan beynəlxalq müşahidəçinin akkreditasiyasının ləğvi ilə bağlı MSK-ya ünvanladığı müraciətə baxılıb, müraciət təmin edilərək beynəlxalq müşahidəçinin akkreditasiyası ləğv olunub və ona verilən lövhəcik etibarsız hesab edilib.

İclasda 2020-ci il fevralın 9-da Milli Məclisə keçirilmiş seçkilərlə əlaqədar müxtəlif mənbələrdən - sosial şəbəkələrdən seçicilər tərəfindən MSK-ya ünvanlanan müraciətlərin və "Qaynar xətt"ə daxil olan məlumatların araşdırılmasının nəticəsi olaraq 80 saylı İmişli-Beyləqan, 35 saylı Xətai üçüncü, 74 saylı Lənkəran kənd və 33 saylı Xətai birinci seçki dairələri üzrə Milli Məclisə seçkilər etibarsız sayılıb. Daxil olmuş digər müraciətlər də komissiyanın iclasında geniş müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul olunub.

Beynəlxalq müşahidə missiyaları və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirak etdiyi iclasda həmçinin cari məsələlərə baxılıb.

### Qərar 23/130

## Mərkəzi Seçki Komissiyasının 31 yanvar və 1 fevral 2020-ci il tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 31 yanvar və 1 fevral 2020-ci il tarixli iclaslarının protokolları təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

### Qərar 23/131

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 1652 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Seçki Müşahidə Missiyasının rəhbəri səfir Peter Teyler 2020-ci il fevralın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin missiyanın üzvü Aygün Attarın akkreditasiyasının ləğv edilməsini xahiş etmişdir.

Müşahidə missiyası rəhbərinin müraciəti təmin edilməli, həmin missiyanın üzvü Aygün Attara Mərkəzi Seçki Komissiyası tərəfindən verilmiş 30 yanvar 2020-ci il tarixli 565 saylı lövhəcik etibarsiz hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü və 28.2-ci maddələrinə əsasən **qərara alır:**

1. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Seçki Müşahidə Missiyası rəhbərinin Mərkəzi Seçki Komissiyasına ünvanladığı 11 fevral 2020-ci il tarixli 1652 saylı müraciəti təmin edilsin, Mərkəzi Seçki Komissiyası tərəfindən Aygün Attara verilmiş 30 yanvar 2020-ci il tarixli 565 saylı lövhəcik etibarsiz hesab edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

### Qərar 23/132

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli 86 və 87 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 80 saylı İmişli - Beyləqan seçki dairəsi üzrə qeydə alınmış namizədlər Əmiraslanlı Razim Malikəjdər oğlu və Şirinov Hikmət İxtiyar oğlu 2020-ci il fevralın 12-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsi üzrə seçki məntəqələrində qanun pozuntularının olduğunu bildirmiş, seçki dairəsinin əhatə etdiyi seçki məntəqələrində səsvermənin nəticələrinin etibarsız hesab edilməsini və həmin seçki dairəsi üzrə seçkilərin etibarsız sayılması barədə qərar qəbul edilməsini xahiş etmişlər.

Seçki günü seçki qanunvericiliyinin ehtimal olunan pozuntularına dair daxil olmuş həmin müraciətlər eyni məzmunlu olduğundan və eyni seçki dairəsinin seçki məntəqələrini əhatə etdiyindən bir icraatda birləşdirilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən araşdırılmış, birgə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Müraciət etmiş deputatlığa qeydə alınmış namizədlər şikayətlərini onunla əsaslandırmışlar ki, seçki məntəqələrində müşahidənin normal aparılmasına şərait yaradılmamış, səslərin hesablanması prosesinin müşahidə edilməsinə maneçilk törədilmiş, 36 saylı seçki məntəqəsində seçki qutusunun kilidi qırılmış, seçki məntəqələrində seçki qutularına topa bülletenlər atılmış, bəzi seçicilərə bir neçə bülleten verilmiş və bir seçici bir neçə dəfə səs vermiş, səsvermənin nəticələrinə dair protokol məlumat lövhəsindən asılmamışdır. Ərizəçilər tərəfindən seçki məntəqələri üzrə tərtib edilmiş aktlar və iki ədəd elektron məlumat daşıyıcısı şikayətə əlavə edilmişdir.

Araşdırmanın tam, hərtərəfli və obyektiv aparılması məqsədilə mümkün olan müxtəlif məlumat mənbələrindən, o cümlədən səsvermə günü seçkilərlə əlaqədar sosial şəbəkələrdə yerləşdirilmiş materiallardan, 80 saylı İmişli - Beyləqan seçki dairəsi üzrə 6 seçki məntəqəsində Mərkəzi Seçki Komissiyası tərəfindən quraşdırılmış və seçki günü fasiləsiz fəaliyyət göstərmiş veb-kameraların görüntülərindən, həmçinin digər materiallardan istifadə edilmişdir.

Sosial şəbəkələr vasitəsi ilə edilən paylaşımlar, təqdim edilmiş aktlar, həmçinin video görüntülər nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək seçki qanunvericiliyinin pozulması və protokolların surətinin müşahidəçilərə verilməməsi iddiaları öz təsdiqini tapmışdır.

Müəyyən edilmişdir ki, 6, 8, 9, 10, 11, 12, 14, 15, 19, 31, 32, 36, 41, 44, 45, 46, 47 və 48 saylı seçki məntəqələrində səsvermə prosesində və səsvermənin nəticələrinin hesablanmasında Seçki Məcəlləsinin tələbləri ciddi şəkildə pozulmuşdur. Bunun nəticəsində həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyən etmək mümkün olmamışdır.

Belə ki, səsvermə prosesində seçicinin iradəsini müəyyən etməyə imkan verməyən hallar, seçki bülletenlərinin sol küncünün əvvəlcədən kəsilməsi, səsvermənin nəticələrinin seçki məntəqələrində elan edilməməsi, protokolların surətinin müşahidəçilərə və digər maraqlı subyektlərə verilməməsi və seçkilərin nəticəsinə təsir edə biləcək seçki qanunvericiliyinin pozulması halları öz təsdiqini tapmışdır.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq araşdırılmış 5, 16, 18, 20, 22, 26, 27, 29, 30, 33 və 43 saylı seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarında bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edilmişdir.

Belə ki, həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair protokollarda səslərin söz və rəqəmlə yazılışında yolverilməz düzəlişlər, namizədlərə verilmiş etibarlı hesab edilmiş səslərin ümumi saya uyğun olmaması, balansın pozulması, seçicilərə verilmiş bülletenlərlə səsvermə qutusundan çıxan bülletenlərin sayı arasında fərqlər, bəzi namizədlərə aid səslərə sonradan düzəlişin edilməsi halları müəyyən edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

- 170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;

- 170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Nəticələri etibarsız hesab ediləcək seçki məntəqələrinin sayı seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil edir. Həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alımış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil edir. Səsvermənin nəticələri etibarsız hesab ediləcək seçki məntəqələrinin sayı 29, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı 24 644, seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayı 49, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı isə 43 080-dir.

Göstərilənlərə əsasən müraciətlərin təmin edilməsi, seçki dairəsinin 5, 6, 8, 9, 10, 11, 12, 14, 15, 16, 18, 19, 20, 22, 26, 27, 29, 30, 31, 32, 33, 36, 41, 43, 44, 45, 46, 47 və 48 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi və seçki dairəsi üzrə seçkilərin etibarsız sayılması üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-ı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli 86 və 87 saylı müraciətləri təmin edilsin, 80 saylı İmişli - Beyləqan seçki dairəsi üzrə 5, 6, 8, 9, 10, 11, 12, 14, 15, 16, 18, 19, 20, 22, 26, 27, 29, 30, 31, 32, 33, 36, 41, 43, 44, 45, 46, 47 və 48 saylı məntəqələrinin üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin və seçki dairəsi üzrə Milli Məclisə seçkilər etibarsız sayılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

### Qərar 23/133

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 79 saylı, 12 fevral 2020-ci il tarixli 88 və 89 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Ümid Partiyasının səlahiyyətli nümayəndəsi Tağızadə Rəfail Alı oğlu 2020-ci il fevralın 11-də, 35 saylı Xətai üçüncü seçki dairəsi üzrə deputatlığa qeydə alınmış namizəd Ağazadə İqbal Fehruz oğlu və Ümid Partiyasının digər səlahiyyətli nümayəndəsi Əliyev Taleh Məhəmməd oğlu 2020-ci il fevralın 12-də Mərkəzi Seçki Komissyasına müraciət edərək seçki günü göstərilən seçki dairəsinin seçki məntəqələrində müxtəlif xarakterli qanun pozuntularına yol verildiyini iddia etmiş və müvafiq tədbirlər görülməsini tələb etmişlər.

Seçki günü seçki qanunvericiliyinin ehtimal olunan pozuntularına dair daxil olmuş həmin müraciətlər eyni məzmunlu olduğundan və eyni seçki dairəsinin seçki məntəqələrini əhatə etdiyindən bir icraatda birləşdirilmişdir.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvləri tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə birgə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Müraciət etmiş səlahiyyətli nümayəndələr və deputatlığa qeydə alınmış namizəd şikayətlərini onunla əsaslandırmışlar ki, səsvermə prosesində dairə seçki komissiyasının əhatə etdiyi seçki məntəqələrinin əksəriyyətində seçici fəallığının yüksək olmaması müşahidə edilmiş, səslərin hesablanması və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində ciddi qanun pozuntularına yol verilərək səsvermədə iştirak etmiş seçicilərin sayı artırılmışdır. Belə ki, əksər seçki məntəqələrində faktiki olaraq səsvermədə iştirak etmiş seçicilərin səsvermə bülletenləri üzrə səslərinin sayılması zamanı elan edilmiş rəqəmlərlə məntəqə seçki komissiyaları tərəfindən səsvermənin nəticələrinə dair tərtib edilmiş rəsmi protokollardakı rəqəmlər arasında uyğunsuzluqlar mövcuddur. Qeyd edilən məntəqələrdə səsvermənin nəticələrinə dair tərtib edilmiş protokolların surəti tələb edilsə də onlara verilməmiş, istifadə olunmuş bülletenlər düzgün sayılmamış, bununla da seçki dairəsinin elan etdiyi ilkin nəticələr seçicilərin iradəsini birmənalı olaraq ifadə etməmişdir. Göstərilənlərə əsasən səslərin yenidən sayılmasını və qanun pozuntularına müvafiq hüquqi qiymət verilərək pozulmuş hüquqların bərpa edilməsini xahiş etmişlər.

Araşdırmanın tam, hərtərəfli və obyektiv aparılması məqsədilə mümkün olan müxtəlif məlumat mənbələrindən, o cümlədən səsvermə günü seçkilərlə əlaqədar sosial şəbəkələrdə paylaşılmış məlumatlardan, 35 saylı Xətai üçüncü seçki dairəsinin 10 seçki məntəqəsində Mərkəzi Seçki Komissiyası tərəfindən quraşdırılmış və seçki günü fasiləsiz fəaliyyət göstərmiş veb-kameraların görüntülərindən, həmçinin digər materiallardan istifadə edilmişdir.

Araşdırma ilə əlaqədar seçki dairəsinə daxil olan məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair təqdim edilmiş rəsmi protokollarına da baxış keçirilmişdir. Baxış zamanı müqayisəli araşdırma nəticəsində seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarında bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkarlanmışdır. Belə ki, təqdim olunmuş elektron məlumat daşıyıcılarında olan materiallarla müqayisəli tədqiq əsnasında, həmin protokollara əsasən səsvermədə iştirak etmiş seçicilərlə bağlı statistik göstəricilər və namizədlər arasında səslərin bölünməsinə dair məlumatlarda uyğunsuzluqlar müəyyən edilmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, seçki dairəsinin 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29 və 30 saylı seçki məntəqələrində səsvermənin keçirilməsi və nəticələrin müəyyənləşdirilməsi zamanı yol verilmiş qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədiyindən səslərin yenidən sayılması istisna edilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

- 170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;

- 170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Səsvermənin nəticələri etibarsız hesab edilən seçki məntəqələrinin sayı seçki dairəsi üzrə seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı isə seçki dairəsi üzrə qeydə alımış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil edir. Belə ki, səsvermənin nəticələri etibarsız hesab ediləcək seçki məntəqələrinin sayı 30, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı 39882, seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayı 33, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı isə 42516-dır.

Milli Məclisə seçkilərdə səsvermə ilə əlaqədar sosial şəbəkələrdə yerləşdirilmiş materialların, 35 saylı Xətai üçüncü seçki dairəsinin əhatə etdiyi 10 seçki məntəqəsində Mərkəzi Seçki Komissiyası tərəfindən quraşdırılmış və seçki günü fasiləsiz fəaliyyət göstərmiş veb-kameraların görüntülərinin və digər materialların araşdırılmasının nəticələrinə əsasən müraciətin qismən təmin edilməsi, seçki dairəsinin 1-30 saylı seçki məntəqələrində səsvermənin nəticələrinin etibarsız hesab edilməsi və seçki dairəsi üzrə seçkilərin etibarsız sayılması üçün hüquqi əsaslar yaranmışdır. Belə ki, 35 saylı Xətai üçüncü seçki dairəsinin 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29 və 30 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilməli və həmin seçki dairəsi üzrə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər etibarsız sayılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1- ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 79, 88 və 89 saylı müraciətlər qismən təmin edilsin, 35 saylı Xətai üçüncü seçki dairəsinin 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29 və 30 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin və həmin seçki dairəsi üzrə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər etibarsız sayılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

### Qərar 23/134

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 12 fevral 2020-ci il tarixli 90 və 91 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 74 saylı Lənkəran kənd seçki dairəsi üzrə deputatlığa qeydə alınmış namizədlər Əziziov Əzizxan İman oğlu və Bəşirov Rəvan Şərafəddin oğlu 2020-ci il fevralın 12-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsi üzrə əksər seçki məntəqələrində səsvermə və səslərin sayılması prosesi zamanı qanun pozuntularının olduğunu iddia etmiş, bunlarla bağlı səsvermənin nəticələrinin etibarsız hesab edilməsini və həmin seçki dairəsi üzrə seçkilərin etibarsız sayılması barədə qərar qəbul edilməsini xahiş etmişlər.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki günü seçki qanunvericiliyinin ehtimal olunan pozuntularına dair daxil olmuş həmin müraciətlər eyni məzmunlu olduğundan və eyni seçki dairəsinin seçki məntəqələrini əhatə etdiyindən bir icraatda birləşdirilmişdir.

Müraciət etmiş deputatlığa qeydə alınmış namizədlər səsvermə günü 74 saylı Lənkəran kənd seçki dairəsinin 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 13, 14, 15, 19, 21, 22, 24, 27, 28, 29, 30, 31, 32, 33, 38 və 39 saylı seçki məntəqələrində seçki məntəqələrinin açılmasından başlayaraq müxtəlif vaxtlarda səsvermənin gedişi, səslərin hesablanması və səsvermənin nəticələri haqqında protokolların tərtib edilməsi zamanı qanun pozuntularına yol verilməsini bildirmiş, həmçinin məntəqə seçki komissiyası üzvləri tərəfindən öz vəzifə səlahiyyətlərini həyata keçirərkən Seçki Məcəlləsinin tələblərinin pozulduğunu, bir çox hallarda müşahidəçilərin hüquqlarını həyata keçirmələrinə maneə törətmələrini iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini tələb etmişdir. Müraciətdə qeyd edilən iddialara dair müşahidəçilər tərəfindən tərtib edilmiş çoxsaylı aktlar və video görüntülər müraciətə əlavə olunmuşdur.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, ona araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirak etmək hüququ izah edilmişdir.

Araşdırmanın tam, hərtərəfli və obyektiv aparılması məqsədilə mümkün olan müxtəlif məlumat mənbələrindən, o cümlədən səsvermə günü seçkilərlə əlaqədar sosial şəbəkələrdə paylaşılmış məlumatlardan, həmçinin digər məlumatlardan istifadə edilmişdir.

Sosial şəbəkələr vasitəsi ilə edilən paylaşımlar, təqdim edilmiş aktlar, həmçinin video görüntülər nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək seçki qanunvericiliyinin pozulmasının baş verdiyi, seçki məntəqəsində səsvermənin nəticələrinin elan edilməməsi, protokolların surətinin müşahidəçilərə verilməməsi və seçki prosesinə müdaxilə edilməsi iddiaları öz təsdiqini tapmışdır.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından mübahisələndirilən və digər məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları alınaraq baxış keçirilmişdir. Baxış nəticəsində 2, 3, 5, 6, 8, 9, 10, 13, 17, 19, 20, 22, 29, 31, 32 və 35 saylı seçki məntəqələrinin səsvermənin nəticələrinə dair yekun protokollarında bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilmişdir.

Belə ki, 2, 3, 5, 6, 8, 9, 10, 13, 17, 19, 20, 22, 29, 31, 32 və 35 saylı seçki məntəqələri məntəqə seçki komissiyaları tərəfindən tərtib və təqdim olunmuş səsvermənin nəticələrinə dair yekun protokollarda səslərin söz və rəqəmlə yazılışında qanunvericiliyin tələbinə əməl edilməmiş, yolverilməz düzəlişlər və fərqlər, namizədlərə verilmiş etibarlı hesab edilmiş səslərin ümumi saya uyğun olmaması, balansın pozulması, seçicilərə verilmiş bülletenlərlə səsvermə qutusundan çıxan bülletenlərin sayı arasında fərqlər, bəzi namizədlərə aid səslərə sonradan düzəlişin edilməsi halları müəyyən edilmişdir.

Göstərilən pozuntular seçki qanunvericiliyinin tələblərinə görə məntəqə seçki komissiyalarında səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün əsas yaratdığından 1,2, 3, 5, 6, 7, 8, 9, 10, 13, 14, 15, 17, 19, 20, 21, 22, 24, 28, 29, 30, 31, 32, 33, 35, 38 və 39 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır. Nəticələri etibarsız hesab edilməli olan seçki məntəqələrinin sayı seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil edir. Həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alımış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil edir.

Odur ki, səsvermənin nəticələri etibarsız hesab edilməli olan seçki məntəqələrinin sayı 27, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı 26771, seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayı 39, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı isə 35807-dir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

- 170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;

- 170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Göstərilənlərə əsasən müraciətin təmin edilməsi, seçki dairəsinin 1, 2, 3, 5, 6, 7, 8, 9, 10, 13, 14, 15, 17, 19, 20, 21, 22, 24, 28, 29, 30, 31, 32, 33, 35 və 39 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi və seçki dairəsi üzrə seçkilərin etibarsız sayılması üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli 90 və 91 saylı müraciətlər təmin edilsin, 74 saylı Lənkəran kənd seçki dairəsinin 1, 2, 3, 5, 6, 7, 8, 9, 10, 13, 14, 15, 17, 19, 20, 21, 22, 24, 28, 29, 30, 31, 32, 33, 35, 38 və 39 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin və seçki dairəsi üzrə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər etibarsız sayılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

### Qərar 23/135

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli 85 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 33 saylı Xətai birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Abbasov Fuad Malik oğlu 2020-ci il fevralın 12-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsi üzrə əksər seçki məntəqələrində səsvermə və səslərin sayılması prosesi zamanı qanun pozuntularının olduğunu iddia etmiş, bunlarla bağlı səsvermənin nəticələrinin etibarsız hesab edilməsini və həmin seçki dairəsi üzrə seçkilərin etibarsız sayılması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizəd F.M.Abbasov müraciətində səsvermə günü 33 saylı Xətai birinci seçki dairəsinin 4, 7, 8, 9, 14, 20, 24, 25, 26, 29, 31, 32, 33, 34, 36, 37 və 38 saylı seçki məntəqələrində seçki məntəqələrinin açılmasından başlayaraq müxtəlif vaxtlarda səsvermənin gedişi, səslərin hesablanması və səsvermənin nəticələri haqqında protokolların tərtib edilməsi zamanı qanun pozuntularına yol verilməsini bildirmiş, həmçinin müvafiq seçki dairəsinin və ya məntəqəsinin seçicilər siyahısında adı olmayan və ya həmin ərazidə qeydiyyatda olmayan şəxslərin səsvermədə iştirakı hallarının olduğunu, eyni şəxsin bir neçə dəfə səs verməsinə şərait yaradılmasını, bir şəxsin bir neçə dəfə səs verdiyini, bəzi seçki məntəqələrində seçki bülletenlərinin topa şəkildə seçki qutularına atıldığını iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini tələb etmişdir. Müraciətdə qeyd edilən iddialara dair müşahidəçilər tərəfindən tərtib edilmiş çoxsaylı aktlar, fotoşəkillər və video görüntülər müraciətə əlavə olunmuşdur.

Araşdırmanın tam, hərtərəfli və obyektiv aparılması məqsədilə mümkün olan müxtəlif məlumat mənbələrindən, o cümlədən səsvermə günü seçkilərlə əlaqədar sosial şəbəkələrdə yerləşdirilmiş materiallardan, həmçinin digər məlumatlardan istifadə edilmişdir.

Sosial şəbəkələrdə yayılan görüntülər, təqdim edilmiş aktlar, fotoşəkillər və video materiallar nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək, yəni seçki qanunvericiliyinin pozulması, protokolların surətinin müşahidəçilərə verilməməsi və seçki prosesinə müdaxilə iddiaları öz təsdiqini tapmışdır.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq baxış keçirilmişdir. Baxış nəticəsində 6, 11, 15, 19 və 26 saylı seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarında bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilmişdir.

Belə ki, 6, 11 və 15 saylı seçki məntəqələrində səslərin söz və rəqəmlə yazılışında yolverilməz düzəlişlər və fərqlər 19 və 26 saylı seçki məntəqələrində namizədlərə verilmiş etibarlı hesab edilmiş səslərin ümumi saya uyğun olmaması, balansın pozulması, seçicilərə verilmiş bülletenlərlə səsvermə qutusundan çıxan bülletenlərin sayı arasında fərqlər, bəzi namizədlərə aid səslərə sonradan düzəlişin edilməsi halları müəyyən edilmişdir.

Göstərilən pozuntular seçki qanunvericiliyinin tələblərinə görə aşağıda sözügedən seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün əsas yaratdığından 4, 6, 7, 8, 9, 11, 14, 15, 19, 20, 24, 25, 26, 29, 31, 32, 33, 34, 36, 37 və 38 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır. Nəticələri etibarsız hesab ediləcək seçki məntəqələrinin sayı seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil edir. Həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alımış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil edir.

Belə ki, səsvermənin nəticələri etibarsız hesab edilməli olan seçki məntəqələrinin sayı 21, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı 25386, seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayı 40, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı isə 47614-dür.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

- 170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;

- 170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Göstərilənlərə əsasən müraciətin təmin edilməsi, seçki dairəsinin 4, 6, 7, 8, 9, 11, 14, 15, 19, 20, 24, 25, 26, 29, 31, 32, 33, 34, 36, 37 və 38 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi və seçki dairəsi üzrə seçkilərin etibarsız sayılması üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli 85 saylı müraciət təmin edilsin, 33 saylı Xətai birinci seçki dairəsinin 4, 6, 7, 8, 9, 11, 14, 15, 19, 20, 24, 25, 26, 29, 31, 32, 33, 34, 36, 37 və 38 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin və həmin seçki dairəsi üzrə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər etibarsız sayılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

**Qərar 23/136**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 59 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 91 saylı Ucar seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Əbil Abbas oğlu 2020-ci il fevralın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 91 saylı Ucar seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Əbil Abbas oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 59 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

**Qərar 23/137**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 60 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 81 saylı Beyləqan seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Anar Sədrəddin oğlu və digərləri 2020-ci il fevralın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 81 saylı Beyləqan seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Anar Sədrəddin oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 60 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

**Qərar 23/138**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 68 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 50 saylı Abşeron - Qobustan seçki dairəsi üzrə qeydə alınmış namizəd Ağazadə Ağasalam Ağacabbar oğlu və digərləri 2020-ci il fevralın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 50 saylı Abşeron - Qobustan seçki dairəsi üzrə qeydə alınmış namizəd Ağazadə Ağasalam Ağacabbar oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 68 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

**Qərar 23/139**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 69 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 72 saylı Yardımlı - Masallı seçki dairəsi üzrə qeydə alınmış namizəd Ağayev Sahib Layic oğlu 2020-ci il fevralın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci və 8-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 72 saylı Yardımlı - Masallı seçki dairəsi üzrə qeydə alınmış namizəd Ağayev Sahib Layic oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 69 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

**Qərar 23/140**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 77 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 95 saylı Tərtər seçki dairəsi üzrə qeydə alınmış namizəd Mehtiyeva Arzu Yusif qızı 2020-ci il fevralın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci və 8-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 95 saylı Tərtər seçki dairəsi üzrə qeydə alınmış namizəd Mehtiyeva Arzu Yusif qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 77 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

**Qərar 23/141**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 78 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 42 saylı Sumqayıt ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd İsrafilov Elşad Vaqif oğlu 11 fevral 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 42 saylı Sumqayıt ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd İsrafilov Elşad Vaqif oğlunun 11 fevral 2020-ci il tarixli 78 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

**Qərar 23/142**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 61 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 125 saylı Zəngilan - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Əsədli Anar Əsəd oğlu 2020-ci il fevralın 11-də Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının olduğunu iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olduğu müəyyən edilərək bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 125 saylı Zəngilan - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Əsədli Anar Əsəd oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 61 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

**Qərar 23/143**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 70 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 14 saylı Xəzər seçki dairəsi üzrə qeydə alınmış namizəd Qafarov Abid Abdin oğlu 2020-ci il fevralın 11-də Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının olduğunu iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 14 saylı Xəzər seçki dairəsi üzrə qeydə alınmış namizəd Qafarov Abid Abdin oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 70 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

**Qərar 23/144**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 82 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə Azərbaycan Sosial Rifah Partiyası Ali Məclisinin sədri Həmid Verdixanov 11 fevral 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək 80 saylı İmişli - Beyləqan seçki dairəsi üzrə qanun pozuntularına yol verildiyini iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin baxılmasına xitam verilməsinə dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 13 fevral 2020-ci il tarixli 23/132 saylı qərarı ilə 80 saylı İmişli - Beyləqan seçki dairəsi üzrə Milli Məclisə seçkilər etibarsız hesab edildiyindən müraciətin baxılmasına xitam verilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci və 8-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə Azərbaycan Sosial Rifah Partiyası Ali Məclisinin sədri Həmid Verdixanovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 82 saylı müraciətinin baxılmasına xitam verilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

**Qərar 23/145**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 73 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 60 saylı Salyan - Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Musavi Kamil İbadət oğlu 2020-ci il fevralın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək adıçəkilən seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 60 saylı Salyan - Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Musavi Kamil İbadət oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 73 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

**Qərar 23/146**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 64 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 79 saylı İmişli seçki dairəsi üzrə qeydə alınmış namizədlər Hüseynli İlqar Qəşəm oğlu, Tapdıqov Taleh Eyvaz oğlu və Şəmmədli Elşən Şükür oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 63 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

**Qərar 23/163**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 81 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 60 saylı Salyan - Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Süleymanov Əlifağa Əbil oğlu 2020-ci il fevralın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək adıçəkilən seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 60 saylı Salyan - Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Süleymanov Əlifağa Əbil oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2020-ci il tarixli 81 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*13.02.2020*

# “Sabahın alimləri” IX Respublika müsabiqəsinin qalibləri mükafatlandırılıb

Bakıda Intel ISEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində fevralın 13-də təşkil olunan “Sabahın alimləri” IX Respublika müsabiqəsinin bağlanış və qaliblərin mükafatlandırılması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanıb. Sonra 2012-ci ildən keçirilən “Sabahın alimləri” Respublika müsabiqəsinə dair videoçarx nümayiş etdirilib.




Mərasimdə Təhsil naziri Ceyhun Bayramov Azərbaycan Prezidenti İlham Əliyevin elmə, təhsilə böyük önəm verdiyini vurğulayıb.

Nazir bildirib ki, elmi-innovativ təşəbbüslərin ön plana çəkilməsi, gənclərin elmi fəaliyyətə istiqamətləndirilməsi elmin və təhsilin qarşısında duran əsas prioritetlərdən biridir. Qeyd edilən çağırışlara uyğun olaraq Təhsil Nazirliyi tərəfindən bir sıra uğurlu təşəbbüslər artıq həyata keçirilməkdədir. Son illər ali təhsil müəssisələrində qlobal çağırışlara adekvat innovativ elmi strategiyaların həyata keçirilməsi istiqamətində təşəbbüslər də artırılıb, yeni elmi istiqamətlər üzrə tədqiqatlara başlanılıb. Bu günə olan məlumata əsasən, “Web of Science” elmi bazasında 2019-cu ildə Azərbaycan üzrə 1581 elmi tədqiqat işi qeydə alınıb ki, onların da təxminən 53 faizi ali təhsil müəssisələrinin payına düşür.

Nazir deyib ki, doqquzuncu dəfə keçirilən “Sabahın alimləri” müsabiqəsi ölkəmizdə həyata keçirilən uğurlu təhsil strategiyasının tərkib hissəsi kimi gənclərimizin innovativ və yaradıcı fəaliyyətinin təşviqi baxımından xüsusi əhəmiyyət daşıyır.

Təhsil naziri müsabiqənin qaliblərini təbrik edib, onlara yeni nailiyyətlər arzulayıb.

Daha sonra müsabiqənin qalibləri mükafatlandırılıb. Müxtəlif kateqoriyalar üzrə I yerə 6 layihə üzrə 11 şagird, II yerə 16 layihə üzrə 29 şagird, III yerə 25 layihə üzrə 46 şagird layiq görülüb.

Qaliblər sırasından cari ilin may ayında ABŞ-da keçiriləcək ISEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisində iştirak etmək üçün 4 layihə (7 şagird) seçilib. Həmin şagirdlər BP-nin maliyyə dəstəyi ilə ABŞ-a göndəriləcək. Bundan əlavə, hər il olduğu kimi, bu il də ABŞ-ın müxtəlif elmi cəmiyyətləri tərəfindən şagirdlərimizə 10 mükafat təqdim edilib.

Qeyd edək ki, müsabiqə Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Gənclər və İdman Nazirliyi, Heydər Əliyev Mərkəzi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi və BP-nin təşkilatçılığı ilə keçirilib.

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaranmasının səkkizinci ildönümü qeyd edilib



Fevralın 13-ü Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaranması günüdür.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra xidmətin əməkdaşları Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anaraq məzarları üzərinə tər çiçəklər düzüb, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.

Daha sonra xidmətin aparatında qurumun yaradılmasının 8-ci ildönümünə həsr olunan təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov çıxış edərək şəxsi heyətə təbriklərini çatdırıb, qurumun yaranması, inkişafı və fəaliyyəti barədə geniş məruzə ilə çıxış edib. Bildirib ki, müstəqil Azərbaycanın bugünkü dinamik inkişafı, dünyada böyük nüfuz və söz sahibi olması Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev böyük qətiyyət və əzmkarlıqla ölkəmizi sabitlik və təhlükəsizlik məkanına çevirib.

Xidmət rəisi qeyd edib ki, ölkəmizdə aparılan islahatların tərkib hissəsi olaraq Prezident İlham Əliyevin 2012-ci il 13 fevral tarixli fərmanı ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradılıb. Ötən səkkiz il ərzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində böyük inkişaf yolu keçərək hərb quruculuğu prosesinin təkmilləşdirilməsinə öz töhfələrini verib.

SHXÇDX müstəqil mərkəzi icra hakimiyyəti orqanı kimi Silahlı Qüvvələrlə cəmiyyət arasında bir növ körpü rolunu oynayır və səkkiz ildir ki, bu vəzifələri müvəffəqiyyətlə icra etməklə dövlətin və vətəndaşların xidmətindədir.

Xidmət rəisi vurğulayıb ki, ötən dövr ərzində səfərbərlik hazırlığı və səfərbərlik işinin təşkili, vətəndaşların ilkin hərbi qeydiyyata alınması, müddətli həqiqi hərbi xidmətə hazırlanması və hərbi xidmətə çağırılması, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, eyni zamanda vətəndaşların qəbulu və müraciətlərinə baxılması, vətəndaş məmnunluğunun təmin edilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə, xidmətin daha bacarıqlı və savadlı kadrlarla komplektləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və digər sahələrdə bir sıra tədbirlər həyata keçirilib. Dövlətimizin qayğısı nəticəsində artıq səkkiz il ərzində bir neçə rayonda SHXÇDX-nin yerli struktur bölmələrinin yeni inzibati binaları istifadəyə verilib. Ötən il xidmətin Goranboy rayon şöbəsinin yeni inzibati binasının açılışı olub, Lənkəran rayon şöbəsinin xidməti şəraiti yaxşılaşdırılıb. Qəbələ, Göygöl və Qax rayon şöbə və bölmələrinin yeni inzibati binalarının inşası başa çatdırılıb, Siyəzən rayonunda isə inşaat işləri davam etdirilir. O cümlədən işğal altındakı Xocavənd rayon əhalisinin, hərbi vəzifəlilərin, çağırışçıların səfərbərlik və hərbi xidmətə çağırış kimi mühüm işlərinin icrasını daha mütəşəkkil qaydada təmin etmək məqsədilə xidmətin yerli struktur bölməsi yaradılıb.

Xidmət rəisi əlavə edib ki, elektron xidmətlərin göstərilməsi və aidiyyəti qurumlar arasında inteqrasiyanın yaradılması istiqamətində müvafiq işlər davam etdirilib, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyinin Əhalinin Dövlət Reyestri Xidməti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi və Dövlət İmtahan Mərkəzi ilə inteqrasiya işləri yekunlaşdırılıb.

Qeyd olunub ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti hərbi vətənpərvərlik tərbiyəsinin daha geniş müstəvidə təbliği məqsədilə ötən il tərəfdaş qurumlarla - “Bakı Metropoliteni” QSC ilə əməkdaşlıq çərçivəsində Bakı metrosunun stansiyalarında, “Azərbaycan Dəmir Yolları” QSC-nin Bakı Dəmir Yolu Vağzalında və sərnişin stansiyalarında, Bakı Nəqliyyat Agentliyinin “Koroğlu” Nəqliyyat Mübadilə Mərkəzində quraşdırılmış monitorlarda SHXÇDX-nin vətənpərvərlik mövzusunda hazırladığı iki videoçarxın yayımına başlanıb. Həmçinin şəhid ailələrinə, müharibə əlilləri və veteranlarına xidmət tərəfindən daim diqqət göstərilir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti respublikamızın bütün şəhər və rayonlarında Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən Novruz bayramı, Qurban bayramı, 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə, o cümlədən dekabrın 1-də və 2-də könüllülük hərəkatının üzvləri olan gənclərin iştirakı ilə “Azərbaycan Könüllülük Həftəsi” layihəsinin “ŞəhidimİZ” kampaniyası çərçivəsində şəhid ailələrinə ziyarət təşkil edib və onlara sovqat çatdırılıb.

Arzu Rəhimov əminliklə bildirib ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hər bir əməkdaşı bundan sonra da Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarına sadiq qalacaq, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin öhdəsindən layiqincə gələrək, daha böyük nailiyyətlər əldə etməyə çalışacaq.

Mərasimdə iştirak edən qonaqlar adından çıxış edən Milli Qəhrəman Şirin Mirzəyevin həyat yoldaşı Flora Qasımova və digər natiqlər xidmətin şəxsi heyətini ildönümü münasibətilə təbrik edib və xoş arzularını çatdırıblar.

Tədbirdə xidmətin bir qrup hərbi qulluqçusunun təltif olunması haqqında SHXÇDX rəisinin imzaladığı əmrlər elan edildikdən sonra xidmətdə fərqlənənlərə dövlət təltifləri, həmçinin hərbi rütbələr və fəxri fərmanlar təqdim olunub.

Mərasimdə həmçinin xidmətlə əməkdaşlıq edən vətəndaş cəmiyyəti institutlarının, veteranların, şəhid ailələrinin nümayəndələrinə təltiflər və hədiyyələr təqdim edilib.

Azərbaycan Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Milli Qəhrəman Vahid Quliyev və vətənpərvərlik mahnılarının ifaçısı Şəmistan Əlizamanlı “Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” medalı ilə təltif ediliblər.

Xidmətin yaradılmasının səkkizinci ildönümü münasibətilə qurumun yerli idarə, şöbə və bölmələri tərəfindən respublikamızın rayonlarında da tədbirlər təşkil olunub.

# Məşhur amerikalı yazıçı ADA Universitetinin fəxri doktoru adına layiq görülüb




ADA Universitetinin rektoru, səfir Hafiz Paşayevin təklifi və universitet Senatının qərarına əsasən, tanınmış amerikalı yazıçı və analitik Tomas Qolts Azərbaycan və Xəzəryanı bölgə üzrə apardığı tədqiqatlarına, bu sahədəki diqqətəlayiq nəşrlərinə, Azərbaycan və ABŞ xalqları arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə verdiyi mühüm töhfələrinə görə ADA Universitetinin fəxri doktoru adına layiq görülüb.

AZƏRTAC xəbər verir ki, fevralın 13-də ADA Universitetində keçirilən təqdimetmə mərasimində rektor Hafiz Paşayev fəxri doktor diplomunu qonağa təqdim edib.

Rektor Azərbaycan ictimaiyyətinin T.Qoltsun ölkələrimiz arasındakı qarşılıqlı anlaşmanın inkişafına verdiyi töhfəni yüksək qiymətləndirdiyini bildirib.

Daha sonra Tomas Qolts çıxış edərək ADA Universiteti tərəfindən verilən yüksək qiymətə və fəxri ada görə minnətdarlığını bildirib. O, Azərbaycanla bağlı xatirələrini bölüşüb, ölkənin müstəqilliyə gedən yolda çox çətin dövrdən keçdiyini nəzərə çatdırıb və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı şahidi olduğu hadisələrdən bəhs edib. T.Qolts müstəqil Azərbaycanın daha böyük uğurlara imza atacağına əminliyini bildirib.

Mərasim çərçivəsində qonaqlar Tomas Qoltsun nümayiş etdirilən kitabları ilə tanış olub, onun Azərbaycanla bağlı xatirələrindən bəhs edən videonu izləyiblər.

Qeyd edək ki, Tomas Qolts müstəqil Azərbaycan və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yazılmış ilk kitablardan olan “Azərbaycan gündəliyi”nin müəllifidir. Onun “Washington Post”, “National Interest” və digər nüfuzlu kütləvi informasiya vasitələrində dərc etdirdiyi məqalələr Azərbaycanın dünya ictimaiyyətinə tanıdılması və Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq mediada işıqlandırılması işinə töhfə verib.

# Azərbaycanın Olimpiya komandasının “Tokio-2020”yə hazırlığı müzakirə olunub

Fevralın 13-də Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə Yaponiyanın ölkəmizdəki səfiri Teruyuki Kator ilə görüşüb.

Komitədən AZƏRTAC-a bildiriblər ki, görüşdə Yaponiya səfirliyinin Mədəniyyət və təhsil şöbəsinin müdiri, 3-cü katib İşikava Daiki və MOK baş katibinin müavini Azər Əliyev də iştirak ediblər.

Görüşdə Azərbaycanın Olimpiya komandasının “Tokio-2020” Yay Olimpiya Oyunlarına hazırlığı, oyunların Azərbaycanda təbliğinə dair MOK-un fəaliyyət planı və bu işlərin həyata keçirilməsində səfirliyin roluna dair müzakirələr aparılıb.

Ç.Hüseynzadə qonaqlara MOK-un tarixi və inkişaf yolu, “Tokio-2020” Yay Olimpiya Oyunlarının fərqli xüsusiyyətləri haqda ətraflı məlumat verib və olimpiadanın əhəmiyyətini xüsusi vurğulayıb. 1964-cü ildə Yaponiyada keçirilən olimpiadada SSRİ yığma komandasının tərkibində Azərbaycan idmançılarının yüksək nəticələr əldə etdiklərini xatırladan vitse-prezident “Tokio-2020” Olimpiadasının da atletlərimiz üçün parlaq qələbələrlə yadda qalacağına əminliyini ifadə edib.

Səfir Azərbaycan idmançılarının yapon idman növləri üzrə yüksək nəticələr göstərdiklərini bildirib. Yaponiyada Azərbaycan idmançılarının güclü rəqib olaraq qəbul edildiklərini deyən diplomat cüdoçuların yapon idmançılarla görüşlərdə qazandıqları nailiyyətləri xüsusi vurğulayıb. O, güləş üzrə Azərbaycan yığmasının Şiko şəhərində təlim-məşq toplanışı keçirdiyini də diqqətə çatdırıb.

Söhbət zamanı “Tokio-2020”nin təbliğat kampaniyası və müvafiq sahədə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

# “Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar” mövzusunda beynəlxalq konfrans keçirilib






Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı, Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Çinin “Bir kəmər, bir yol” Elm və Texnologiya Alyansının dəstəyi ilə Bakıda “Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar” mövzusunda 2 günlük beynəlxalq konfrans işə başlayıb.

Konfransın açılışı “Four Seasons” hotelində olub. Tədbirdə Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov, Təhsil nazirinin müavini İdris İsayev, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, UNEC-in rektoru, professor Ədalət Muradov, konfransın təşkilatçıları, UNEC-in əməkdaşlıq etdiyi yerli və xarici universitetlərin rektorları, tərəfdaş təşkilatların rəhbərləri və nümayəndələri, tanınmış akademiklər, alimlər iştirak ediblər.

Rektor Ədalət Muradov tədbir iştirakçılarını salamlayaraq konfransın məqsədini açıqlayıb. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində əldə edilmiş ciddi uğurlar və artıq formalaşdırılmış möhkəm bazanı nəzərə alaraq, ölkəmizin gələcəkdə daha dayanıqlı, innovativ və rəqabətqabiliyyətli iqtisadi inkişafının təmin edilməsinin ən ciddi aləti rəqəmsal transformasiyadır. Məhz rəqəmsal iqtisadiyyatın müxtəlif aspektlərini müzakirə etmək və bu məsələni daim gündəlikdə saxlamaq məqsədilə 15 beynəlxalq və xarici təşkilatın tərəfdaşlığı ilə beynəlxalq konfransın təşkil edilməsinə qərar verilib.

Rəqəmsallaşmanın əmək bazarında yeni kompetensiyalar tələb etdiyini deyən rektor onun bütövlükdə təhsil sisteminə, eləcə də kənd təsərrüfatı, nəqliyyat, maliyyə sektoruna ciddi təsir göstərdiyini vurğulayıb. Ə.Muradov təhsilin bütün səviyyələrində rəqəmsal iqtisadiyyat sahəsində kadr hazırlığının tələb olunduğunu, iqtisadiyyatın rəqəmsallaşmasının statistik göstəricilərə tələbi dəyişməsini, beynəlxalq standartların hələ də formalaşmadığı bir zamanda rəqəmsal iqtisadiyyatla bağlı proseslərin statistik ölçülməsi mexanizminin yaradılmasının vacibliyini diqqətə çatdırıb. Rektor həmçinin “Rəqəmsal Azərbaycan” Dövlət Proqramının hazırlanmasının faydalı ola biləcəyini deyib.

Təhsil nazirinin müavini İdris İsayev isə inkişaf tendensiyalarını və trendləri nəzərə alaraq, son illərdə texniki-texnoloji ixtisaslar üzrə kadr hazırlığına xüsusi diqqət yetirildiyini bildirib. Bu tədris ilində innovasiyaların tətbiqinə yönəldilmiş texniki və texnoloji ixtisas qrupu üzrə ötən ilə nisbətən 4,3 faiz artım olduğunu, dövlət sifarişi əsasında tələbə qəbulu planının texniki və texnoloji ixtisas qrupu üzrə 71 faiz artdığını deyib. Nazir müavini son illərdə Azərbaycan ali məktəblərinin dünyanın aparıcı universitetləri ilə beynəlxalq əlaqələrinin əhəmiyyətli dərəcədə artdığını da diqqətə çatdırıb. Hazırda universitetlərimizdə beynəlxalq akkreditasiyadan keçmiş 11 təhsil proqramının tətbiq edildiyini, ölkəmizin 10 universitetinin dünyanın 20 universiteti ilə 25 ixtisas və ixtisaslaşma üzrə ikili diplom proqramları üzrə kadr hazırlığını həyata keçirdiyini, bunların da 7-sinin məhz texniki və texnoloji ixtisaslara aid olduğunu vurğulayb.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində görülən işlərdən danışıb. Nazir müavini bu istiqamətdə elektron hökumətin yaradıldığını, nazirlik tərəfindən müxtəlif istiqamətlər üzrə 68 xidmətin elektronlaşdırıldığını bildirərək, ümumilikdə ənənəvi iqtisadiyyatın rəqəmsal iqtisadiyyata transformasiyasının reallaşdırıldığını diqqətə çatdırıb. Nazirlik rəsmisi Azərbaycanda lisenziyalar və icazələr portalının fəaliyyətə başladığını və bugünədək sözügedən platforma vasitəsilə 1500-dən çox lisenziya verildiyini qeyd edib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə rəqəmsal iqtisadiyyatın inkişafına təsir edən amillərdən söz açıb. Nazir müavini bu istiqamətdə infrastrukturun modernləşdirilməsinin, müasir texnologiyaların tətbiqinin, internet istifadəçilərinin sayının artmasının, elektron ticarətin genişlənməsinin əsas rol oynadığını diqqətə çatdırıb. O, Azərbaycanın 3G şəbəkə göstəricisi üzrə dünyanın orta göstəricisindən öndə olduğunu, hazırda isə 4G şəbəkəsinin genişləndirildiyini deyib. E.Vəlizadə 2019-cu ildə Dünya İqtisadi Forumunun dərc etdiyi Qlobal Rəqabətlilik Hesabatına əsasən, Azərbaycanın hər 100 nəfərə düşən internet istifadəçilərinin sayına görə, dünyanın 141 ölkəsi arasında 43-cü yerdə qərarlaşdığını və bu göstərici üzrə ölkəmizin region dövlətləri arasında 2-ci olduğunu diqqətə çatdırıb.

Konfransın açılış mərasimində plenar məruzələr də dinlənilib. Almaniyanın Köln Universitetinin Media və İdarəetmə Texnologiyaları Departamentinin direktoru, professor Klaudia Loebbecke “Rəqəmsallıq, analitik göstəricilər və süni intellekt biznes və cəmiyyəti necə dəyişdirə bilər” mövzusunda təqdimatla çıxış edib.

Azərbaycan-İsrail Ticarət Palatasının sədri Aleks Kaplunun təqdimatı isə “Rəqəmsallaşma təkamülünə vençur kapital investorlarının baxışı” mövzusunda olub. Palata sədri Azərbaycanda müəssisə kapitalına investisiya yatırmaq üçün böyük imkanların mövcud olduğunu deyib. O, Estoniya, Ukrayna və Belarus kimi ölkələrdə bu prosesin sürətlə getdiyini və Azərbaycanda iqtisadiyyatın rəqəmsallaşma sürətini nəzərə alaraq, həmin imkanların burada yaradılmasının məqsədəuyğun olduğunu bildirib.

Konfrans işini UNEC-də 4 mövzu üzrə bölmə iclaslarında davam etdirib. İclaslarda dövlət idarəetməsinin rəqəmsal transformasiyası, rəqəmsal əməkdaşlığa regional baxış, maliyyə sektorunun rəqəmsallaşması, sosial sahələrin və təhsilin rəqəmsal transformasiyası, eləcə də rəqəmsallaşmanın iqtisadiyyatın bütün sahələrində tətbiqinə və bunun təhsildə özünü göstərməsinə dair müzakirələr aparılıb.

Konfrans çərçivəsində UNEC-lə Rusiyanın “E.T.Qaydar adına İqtisadi Siyasət İnstitutu” Fondu arasında elmi əməkdaşlığa dair müqavilə imzalanıb.

Beynəlxalq konfransın 2-ci günü isə yerli və xarici alimlərin “Azərbaycanda rəqəmsal iqtisadiyyat, risklər və həllər”, “İpək yolunun rəqəmsallaşdırılması imkanları”, “rəqəmsal valyutalar və elektron ticarətin riskləri və faydaları”, “rəqəmsal iqtisadiyyatda insan kapitalının rolu”, “rəqəmsal iqtisadiyyat və yeni biznes modellərinin inkişafı”, “ağıllı şəhərlər” beynəlxalq təcrübədə” və digər mövzularda çıxışları olacaq, müzakirələr aparılacaq. Tədbir çərçivəsində həmçinin informasiya texnologiyaları şirkətlərinin panel təqdimatları olacaq.

Konfransın yekununda Azərbaycanın Rəqəmsal Ticarət Qovşağının Böyük İpək yolu üzrə rəqəmsal, eyni zamanda Avropa coğrafiyasında vahid elektron məkana çevrilməsi məsələləri müzakirə olunacaq. Bu müzakirələr regionda rəqəmsal əməliyyatların Azərbaycan üzərindən aparılması və beynəlxalq ticarət dövriyyəsinin inkişaf etdirilməsi potensialını üzə çıxaracaq. Eyni zamanda ölkəmizdə “Rəqəmsal iqtisadiyyat” konsepsiyasının və dövlət proqramlarının işlənib hazırlanmasına töhfələr verəcək, onun regionun rəqəmsal iqtisadiyyat məkanına inteqrasiyasına yol açacaq.

Qeyd edək ki, beynəlxalq konfransın əsas məqsədi rəqəmsal iqtisadiyyatın müasir vəziyyəti və onun inkişafını zəruri edən amillərin araşdırılması, gələcək perspektivlərin müzakirəsi və proqnozlaşdırılması, rəqəmsal idarəetmə sahəsində qabaqcıl biliklərin bölüşdürülməsidir.

***M.NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

Yeni nəşrlər

# "Ötən ilin son gecəsi"nin nağılı

## Dost itkisinə yazılan elegiyada Azərbaycan polisinin fəaliyyətindən söz açılır

Dövlətin və xalqın keşiyində ayıq-sayıq duran polisi qışın şaxta-ayazında, qarında, çovğununda, boranında səngərdə dayanan əsgərə bənzədənlər səhv etməyiblər. Lakin etiraf edək ki, heç də həmişə polisin əziyyəti, vətənə, dövlətə xidməti layiqincə işıqlandırılmayıb. Belə ki, onlar layiq olduqları səviyyədə ictimaiyyətə təqdim edilməyiblər. Bununla yanaşı, son illər Azərbaycan polisinin şərəfli xidməti barədə maraqlı, xoşsoraqlı yazılara da arasıra rast gəlinir.




Geniş oxucu auditoriyasına yenicə çıxarılan bir nəşrdə isə Azərbaycan polisinin şəxsiyyəti ilə əməli fəaliyyəti lakonik, tutarlı, nümunəvi faktlarla əks etdirilir. "Ötən ilin son gecəsi-9 fevral" adlanan bu kitaba ön söz yazan filologiya üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist, şair-tədqiqatçı Adil Cəmil haqlı olaraq əsəri dost itkisinə elegiya adlandıraraq qeyd edir ki, ağır həyati sınaqlardan, döyüş meydanlarından sağ-salamat çıxan yenilməz bir insanın qəfil xəstəlikdən dünyasını dəyişməsi bu hekayəti qələmə alan Rahib Qarayevi bəlkə də hamıdan çox (mərhumun ailəsi istisna olmaqla) sarsıdır: "Otuz ildən artıq ünsiyyətdə olduğun, "can deyib-can eşitdiyin", bir məktəbdə oxuduğun, bir yolu qoşa getdiyin, eyni məramlı, eyni düşüncəli əzizini itirməyin nə demək olduğunu belə itkilərə məruz qalanlar bilər..."

Əsərin qəhrəmanını isə müəllif belə təqdim edir: "Daxili işlər orqanlarında 33 illik xidməti dövründə Şükür Mehtiyev həmişə polis andına, vətəninə, xalqına, dövlətinə sədaqətlə xidmət etmiş, sonuncu iş yeri olan Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsində çalışarkən dəfələrlə ölkə xaricində keçirilən beynəlxalq tədbirlərdə Azərbaycanı ləyaqətlə təmsil etmişdir. Xidmət müddətində "Daxili İşlər orqanlarında qüsursuz xidmətlərinə görə" medalının hər 3 dərəcəsinə, 2013-cü ildə isə cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması, xidməti vəzifələrin və xüsusi tapşırıqların yerinə yetirilməsində fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən, "Vətən uğrunda" medalı ilə təltif edilmişdir".

Nəfis tərtibatla oxuculara təqdim olunan kitabda illərin və nəsillərin sınağından çıxmış dost sevgisini, etibarını qazanmağın asan olmadığını ustalıqla qələmə alan müəllifin onun itkisinə də yanaşması düşündürücü və təsirlidir. Publisist düşüncələrin tarixi xronologiya ilə vəhdət təşkil etdiyi kitabda vətəninə, dövlətinə sadiq, səmərəli və nümunəvi xidmət göstərmiş bir nəfərin şəxsində Azərbaycan polisinin ümumi obrazı yaradılır. Bədii sözlə yaradılan həmin obrazı görmək üçün iki dildə (Azərbaycan və rus) buraxılan "Ötən ilin son gecəsi-9 fevral" kitabını sadəcə vərəqləmək yox, diqqətlə oxumaq lazımdır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# "Azercell Biznes" müəssisələrin rəqəmsal dünyada uğur qazanmasına dəstək olur

"Azercell"in mətbuat xidmətinin verdiyi məlumata görə, müştərilərin rəqəmsal transformasiyasını dəstəkləyən "Azercell Biznes" böyük məmnuniyyətlə fevralın 13-dən etibarən yeni "Biznesim Wi-Fi" təklifini təqdim edir. Artıq korporativ abunəçilər daha əlverişli rabitə dəstəyi ilə Wi-Fi USB və ya Mi-Fi modemlərindən istifadə edə biləcəklər.




"Biznesim Wi-Fi" təkliflərinin köməyilə korporativ abunəçilər fiziki bağlantı olmayan istənilən yerdən rahatlıqla internetə qoşulmaqla yanaşı, 10-a qədər cihaz arasında interneti paylaşdırmaq imkanına da sahib olacaqlar. İstifadəçilərin fərqli tələblərinə əsaslanan müxtəlif həcmli və bir paketdən digərinə keçid imkanına malik data paketlərdən ibarət xüsusi təklif kiçik, orta və fərdi müəssisələr üçün ideal bir həll vəd edir.

Təqdim olunan yeni təklifin əsas üstünlüyü ondan ibarətdir ki, internet paketlərindən birini seçməklə abunəçi ilkin ödəniş etmədən cihazı pulsuz əldə edir. Wi-Fi USB modemi USB portu vasitəsilə işə salınır, Mi-Fi cihazı isə heç bir cihaz və ya porta qoşulmadan müstəqil şəkildə işləyə bilər. Təkliflərin daha bir üstün cəhəti növbəti 12 ay ərzində paketi digəri ilə dəyişmək imkanıdır.

"Biznesim Wi-Fi" təklifinin qiyməti 20 manatdan başlayaraq həcmi 200 GB-a qədər olan müxtəlif internet paketlərini əhatə edir.

"Biznesim Wi-Fi" təklifi də daxil olmaqla müxtəlif biznes müəssisələri üçün geniş çeşidli məhsullar və həlləri təklif edən "Azercell Biznes" bir daha özünü etibarlı rəqəmsal biznes tərəfdaşı kimi təsdiq etmiş olur.

# Beynəlxalq aləm

## Çində koronavirusa yoluxmaların sayı sıçrayışla artdı



Dünən Çinin Hubey əyalətində COVİD-19 virusuna yoluxmuş adamların sayı əvvəlki günlə müqayisədə 10 dəfə artıb 14840-a çatmışdır. Bu barədə yerli hakimiyyət orqanları məlumat vermişdir.

Həmin müddətdə ölüm hallarının sayı iki dəfədən çox artıb 242-yə çatmışdır. Beləliklə, yeni tipli koronavirusun törətdiyi sətəlcəmdən dünyasını dəyişmiş xəstələrin ümumi sayı təkcə Çində 1350 nəfərdir. Onların 1310-u Hubey əyalətində yaşayırdı. Təsdiq olunmuş diaqnozların ümumi sayı 48208-dir. Bu barədə DPA agentliyi xəbər verir. Yerli hakimiyyət orqanları bu sıçrayışı infeksiyanın diaqnostikası üsulunun dəyişməsi ilə izah edir.

Bu arada Dünya Səhiyyə Təşkilatının başçısı Tedros Adxanon Gebreyesus bildirmişdir ki, Çində koronavirusa yeni yoluxma hallarının sayı son bir həftə ərzində sabit olaraq azalır. O xatırlatmışdır ki, fevralın 4-dən bəri xəstəlik qeydə alınmış ölkələrin sayı dəyişməmişdir. Eyni zamanda Gebreyesus vurğulamışdır ki, bu statistikaya çox ehtiyatla yanaşmaq lazımdır, çünki koronavirusun epidemiyası "hələ digər tərəfə gedə bilər".

## BMT Liviyada atəşi dayandırmağı tələb edir



Liviyaya dair Berlin sammiti başa çatdıqdan üç həftə sonra BMT Təhlükəsizlik Şurasının həmin görüşdə regionda dinc nizamlama haqqında əldə olunmuş sazişlə bağlı qəbul etdiyi qətnaməni hüquqi baxımdan möhkəmlətməyə xidmət edir. Bu barədə "Alman dalğası" radiostansiyası" xəbər verir.

Səsvermə zamanı Rusiya bitərəf qalmışdır. Almaniyanın BMT-dəki daimi nümayəndəsinin müavini Hayko Mas bildirmişdir ki, Liviya barədə qətnamənin qəbul olunması münaqişənin sülh yolu ilə həlli istiqamətində böyük addımdır. Siyasətçi Liviya münaqişəsinə cəlb olunmuş bütün dövlətləri BMT Təhlükəsizlik Şurasının qərarına ciddi yanaşmağa və regiona silah satışına qoyulmuş embarqoya riayət etməyə çağırmışdır.

Ötən ayın 19-da Berlin beynəlxalq konfransında Liviya münaqişəsinin dinc vasitələrlə tənzimlənməsi barədə qəbul olunmuş saziş 55 bənddən ibarətdir. Sənədi 16 ölkə və təşkilatın nümayəndələri imzalamışlar. Söhbət uzunmüddətli atəşkəs rejiminin bərqərar olmasından və Liviyaya silah göndərilməsinin qadağan edilməsindən gedir.

## Məhmətcik Əsəd ordusunun 55 hərbçisini zərərsizləşdirdi



Türkiyə Silahlı Qüvvələri Suriyanın şimalında, İdlib gərginliyin azaldılması zonasında Bəşşar Əsəd rejimi qoşunlarının 55 əsgərini zərərsizləşdirmişdir. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat vermişdir.

Məlumatda deyilir ki, müxtəlif mənbələrdən alınmış məlumatlara görə, srağagün İdlib bölgəsində rejim ordusunun 55 ünsürü məhv edilmişdir.

Bu arada Türkiyə İdlib ərazisində yerləşən müşahidə məntəqələrinə raket kompleksləri daşıyır. "Anadolu" agentliyinin xəbərinə görə, bölgəyə 15 yük maşınında lazımi texnika göndərilmişdir.

## DSX: "Son bir ayda 38 əcnəbi vətəndaşın saxta sənədlərlə Azərbaycana gəlməsinin qarşısı alınıb"

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirlərini uğurla davam etdirir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, xidmətin sərhəd nəzarəti əməkdaşlarının sayıqlığı və peşəkarlığı nəticəsində son bir ay ərzində dövlət sərhədindən buraxılış məntəqəsində 38 əcnəbinin, o cümlədən 21 nəfər İran, 3 nəfər İraq, 3 nəfər Özbəkistan, 2 nəfər Hindistan, 2 nəfər Misir, 2 nəfər Pakistan, 2 nəfər Efiopiya və hər birindən 1 nəfər olmaqla, Küveyt, Nigeriya, Nepal vətəndaşının sənədlərinin saxtalaşdırılması halları müəyyən edilib.

Saxlanılmış şəxslər barəsində müvafiq tədbirlər görülüb.

Dövlət sərhədinin pozulmasına cəhd hallarının təhlili göstərir ki, əsasən Yaxın Şərq və Asiya ölkələrinin vətəndaşları Avropa ölkələrinə məxsus saxta pasport və vizalardan istifadə edərək Azərbaycan ərazisindən tranzit keçməklə Avropa ölkələrinə getməyə cəhd göstərirlər.


## Azərbaycan Respublikasının Mərkəzi Bankı Milli Ödəniş Sistemi infrastrukturunun əsas komponentlərinin vahid virtual infrastrukturda qurulması məqsədilə mal və xidmətlərin satın alınması ilə bağlı

### *tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı Milli Ödəniş Sistemi infrastrukturunun əsas komponentlərinin vahid virtual infrastrukturda qurulması məqsədilə mal və xidmətlərin satın alınması ilə bağlı tender keçirir.

Tender proseduru **07 aprel 2020-ci il saat 15:00-da** Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış (xarici iddiaçılar tərəfindən məlumat);*
- *iki nüsxədə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 20 may 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *iddiaçının müvafiq sahə üzrə ən azı iki illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu);*
- *iddiaçının təklif olunan malların satılmasına müvəkkil edildiyini təsdiq edən Avtorizasiya forması (Manufacturer Authorization Form);*
- *iddiaçının ixtisas uyğunluğuna dair tenderin əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını **06 aprel 2020-ci il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci **19 mart 2020-ci il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında əlaqələndirici şəxsə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikasının Mərkəzi Bankının aşağıdakı hesabına 500 (beş yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Hesab №: AZ25NABZ01701190000000001944**
**M/h: AZ74NABZ01451700000000001944**
**Kod: 501004**
**VÖEN: 9900071001**

Xarici iddiaçılar iştirak haqqını ödəniş gününə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsi ilə ABŞ dollarında aşağıda göstərilmiş hesaba ödəyə bilərlər:

**Correspondent Bank: FRNYUS33,**
**Federal Reserve Bank of New York,**
**corr. account number: 021088221 AZER,**
**account №: AZ25NABZ01701190000000001944.**

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Virtual platformanın qurulması məqsədilə texniki avadanlıqları, standart proqram təminatı lisenziyalarını və xidmətləri tender üzrə satınalma müqaviləsi imzalandığı gündən ən geci 8 (səkkiz) ay ərzində təhvil verilməlidir. Vahid virtual platformanın qurulması üçün tələb olunan mallar CİP (Incoterms 2010) Bakı şərtilə təchiz edilməlidir.

Qiymətləndirmə meyarları: qiymət və texniki amillər.

Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilər. Tenderin əlaqələndirici şəxsi: Elman Muradov (İnformasiya texnologiyaları departamentinin əməkdaşı). Telefon: 493-11-22 (499), faks: 493-55-41, elektron poçt ünvanı: elman_muradov@cbar.az.

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir

**LOT 1** - Ərzaq mallarının satın alınması;
**LOT 2** - Elektrik tənzimləyiciləri üçün təmir materiallarının satın alınması.

İddiaçılara təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar hər bir LOT üzrə 100 AZN məbləğində müəyyən edilən iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**

| | |
|---|---|
| **Ünvan:** | **AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165** |
| **VÖEN:** | **9900041961** |
| **H/h:** | **AZ84NABZ01360400000000001944** |
| **Bank:** | **Azərbaycan Respublikasının Mərkəzi Bankı** |
| **Kod:** | **501004** |
| **VÖEN:** | **9900071001** |
| **M/h:** | **AZ74NABZ01451700000000001944** |
| **SWIFT BIK:** | **NABZAZ 2C** |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) 05 mart 2020-ci il saat 10:00-a, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) 16 mart 2020-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər 17 mart 2020-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


***Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Arif Həsrət oğlu Mehdiyevin adına Bakı şəhəri, Abşeron rayonu, Güzdək qəsəbəsində torpaq sahəsinə dair verilmiş MH № 0301307 seriyalı (reyestr nömrəsi 308013035293, qeydiyyat nömrəsi 1611025087) Çıxarış itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi "Azərkontrakt" Səhmdar Cəmiyyətinin sədri
**MİRİ QƏNBƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Siyəzəndən Novruz Novruzov Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Səhmdar Cəmiyyətinin sədri
**MİRİ ƏHƏD OĞLU QƏNBƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Rahim Hüseynov ailəsi ilə birlikdə
**MİRİ ƏHƏD OĞLU QƏNBƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Gündüz Kərimova əzizi
**İVAN ABBASOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqının kollektivi və Həmkarlar İttifaqları üzvləri Həmkarlar İttifaqının sədri
**ETİBAR ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6966
Sifariş 498
Qiyməti 40 qəpik